**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN NƏSRİNDƏ PSİXOLOGİZM (2000-2010-cu illər)

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Suğra Əkbər qızı Ələkbərli**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | AMEA-nın həqiqi üzvü,<br>filologiya elmləri doktoru, professor<br>**Muxtar Kazım oğlu İmanov** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Təyyar Salam oğlu Cavadov** |
| | filologiya elmləri doktoru, dosent<br>**Xuraman Bəhmən qızı Hümmətova** |
| | filologiya elmləri doktoru, dosent<br>**Əzizağa Bayram oğlu Nəcəfov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>________________ | filologiya elmləri doktoru, professor<br>**Seyfəddin Gülverdi oğlu Rzayev** |
| Dissertasiya şurasının elmi katibi:<br>________________ | filologiya üzrə fəlsəfə doktoru<br>**Nizami Şamil oğlu Adışirinov** |
| Elmi seminarın sədri:<br>________________ | filologiya elmləri doktoru, dosent<br>**Leyla Kamran qızı Məmmədova** |

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI FOLKLOR İNSTİTUTU

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir Azərbaycan nəsrinin öz psixoloji çəkisi var. Bu hal dövrün psixoloji əhval-ruhiyyəsi ilə sıx bağlıdır. Çağdaş və müstəqil Azərbaycan ədəbiyyatının psixoloji nüanslarını təyin edən xeyli məqam saymaq olar. Bu məqamlar universal, dünyəvi, bəşəri, lokal, milli, genetik kontekstlərdən qidalanır. Belə ki, XX əsrin sonu XXI əsrin əvvəllərinin lokal və dünyəvi əhval-ruhiyyəsi müstəqillik dövrünün Azərbaycan ədəbiyyatında əks oluna bilir. Çünki iki əsrin astanasında Azərbaycan insanının ruh halının bədii inikası baş tutur.

XXI əsrin bütöv diskursu, postsovet mühiti, müharibə psixologiyası, qloballaşma tendensiyası və bütün bunların fövqündə dayanan müstəqillik hadisəsi, milli özünüdərk, özünəqayıdış şəraiti kimi məqamlar Azərbaycan insanın psixoloji durumunu izah etmək üçün sosial-ictimai, tarixi-fəlsəfi, mədəni arqumentlərə çevrilir. Belə demək mümkünsə, müstəqillik dövrü insanı mürəkkəb sosial-psixoloji modeldir. Həm ədəbiyyat, həm də psixologiyanın rakursundan baxanda kompleks hadisə kimi görünür və ciddi təhlilə ehtiyacı var.

Müstəqillik dövrü ədəbiyyatı, xüsusilə onun gənc ömrünün dünəni və bu günü arasındakı əlaqənin bünövrəsinin qoyulduğu 2000-2010-cu illər ədəbiyyatında psixoloji məqamların çəkisi kifayət qədər ağırdır və ciddi araşdırma tələb edir. Məhz 2000-ci illərdən sonra Azərbaycan ədəbiyyatında yenilik, müasirlik tendensiyaları konseptual hal almağa başlayır. Ədəbiyyatın müxtəlif növ və janrları humanitar düşüncənin dəyişən paradiqmaları ilə dialoqa girir, xüsusilə nəsr sahəsində yeni narrativlər meydana çıxır.

Digər tərəfdən müstəqilliyin ilk illərində yaşanan ağrılı-acılı hadisələr məhz bir qədər sonra ədəbiyyatın mövzusuna çevrilə bilmiş, nəticədə zamana uyğun dərin psixoloji kolliziyalar mətnlərə də sirayət etmişdir. Nəsrdə yeni psixoloji obrazlar, situasiya və hallar, konflikt və ziddiyyətlər yaranmışdır. Kamal Abdullanın "Yarımçıq əlyazma", Seyran Səxavətin "Qaçhaqaç", "Yəhudi əlifbası", Mövlud Süleymanlının "Erməni adındakı hərflər", Eyvaz Əlləzoğlunun "Odunçu geri qayıdır", Nəriman Əbdülrəhmanlının "Yalqız" və "Yolsuz", Aydın Talıbzadənin "Kəpənək modeli 102", İlqar Fəhminin "Akvarium", "Bakı tarixindən kollaj", "Qarğa

yuvası”, Kəramət Böyükçölün “Çöl”, Nərmin Kamalın “Aç, mənəm”, Aqşin Yeniseyin “Göləqarğısancan”, Şərif Ağayarın “Haramı”, Həmid Herisçinin “Nekroloq”, Pərviz Cəbrayılın “Öləngi”, “Yad dildə”, Qanturalının “Mustafa”, Əli Əkbərin “Amneziya”, Zümrüd Yağmurun “Allah qayıdır”, Sevinc Pərvanənin “Şəhər”, Taleh Şahsuvarlının “Canlanma”, Ülviyyə Heydərovanın “Noutbuk”, Cavid Zeynallının “Günəşi gözləyənlər” və s. əsərləri məhz müstəqilliyin ikinci dekadasının rəngarəng, çoxçeşidli, fərqli aurasından xəbər verir. Bu mətnlərdə ortaya çıxan psixoloji amillərin arxasında antropoloji, kulturoloji, sosioloji və s. arqumentlər dayanır.

Bütün bunlar insan ruhunda baş verən dəyişikliklərin bədii inikasının yollarını tapmağı, müxtəlifliyi izah etmək üçün müvafiq konsepsiyanın irəli sürülməsini tələb edir. Bu da mövzunun aktuallığını şərtləndirir. Digər tərəfdən psixologizm termininin özünün yeni nəzəri-estetik dəyərlər kontekstində tədqiqini tələb edir, tədqiqat predmetinin yeni estetik-nəzəri dəyərlər kontekstində dözümlülüyünü və davamlılığını yoxlamaq ehtiyacı yaradır.

Mövzunun işlənmə dərəcəsinə gəlsək, Azərbaycan ədəbiyyatşünaslığında psixologizmin tədqiqi XX əsrin ikinci yarısında, bədii ədəbiyyatın “insanlaşma”sından sonra başlayır. Bu zaman psixologizmin tədqiqinin elmi-nəzəri bazasını rus-sovet ədəbiyyatşünaslığında psixologizm probleminin qoyuluşu, şərhi, genezisi və mərhələləri ilə bağlı araşdırmalar təşkil edib. Bədii ədəbiyyatın insana və onun psixologiyasına artan marağı paralel olaraq ədəbiyyatşünaslıqda da terminoloji dəqiqləşdirmələrə, akademik yanaşmaların ortaya çıxmasına səbəb olmuşdur. Məmməd Cəfər, Yaşar Qarayev, Akif Hüseynov, Elçin, Abbas Hacıyev, Aydın Məmmədov, Kamil Vəliyev və başqaları müxtəlif dövrlərdə psixoloji məzmunla bağlı mülahizələrə aydınlıq gətirmiş, maraqlı yanaşmalarla çıxış etmişlər. Ədəbiyyatşünaslıq ədəbiyyatda insan psixologiyasını görməyə, situasiyaları adlandırmağa məhz 1960-1980-ci illər nəsrindən sonra daha ciddi şəkildə yanaşmağa başlamışdı.

Bilirik ki, Azərbaycan nəsrində psixologizmin konseptual şəkildə öyrənilməsi Muxtar Kazımoğlu İmanovun adı ilə bağlıdır. Alimin 1991-ci ildə çap olunmuş “Müasir Azərbaycan nəsrində psixologizm” adlı tədqiqatı özündən sonra psixologizmlə bağlı

araşdırmalara ciddi şəkildə istiqamət vermişdir. Sərvinaz Həsənovanın "Müasir Azərbaycan hekayəsində psixoloji təhlil (1970-80-ci illər)" (1995), Səyyad Salahlının (Aran) "1960-1980-ci illər Azərbaycan nəsrində psixologizm: Mövlud Süleymanlının yaradıcılığı üzrə" (2005), Təranə Əzimovanın "Anar dramaturgiyasında psixologizm" (2008), Törə Məmmədovanın "İlyas Əfəndiyevin nəsrində psixologizm" (2009), Fidan Əbdürrəhmanovanın "Müasir Azərbaycan poeziyasında psixologizm" (2012), Xanverdi Fərziyevin "Müasir Azərbaycan dramaturgiyasında psixologizm problemi (İlyas Əfəndiyevin yaradıcılığı əsasında)" (2015), Şəhla Hüseynovanın "Azərbaycan hekayəsində portret və psixologizm problemi (Ə.Əbülhəsənin yaradıcılığı əsasında)" (2018) adlı tədqiqatları ciddi informasiya qaynağı olmaqla yanaşı, Azərbaycan ədəbiyyatında yaşayan Azərbaycan insanını öyrənmək baxımından əhəmiyyətə malikdir. Onu da qeyd edək ki, 1990-cı illərin sonlarından etibarən Azərbaycan ədəbiyyatşünaslığında insan konsepsiyasının öyrənilməsi istiqaməti özünü göstərir və psixoloji məzmunlu təhlillər də bu tip tədqiqlərin əsasını təşkil etməyə başlayır. Nərgiz Paşayevanın "İnsan bədii tədqiq obyekti kimi (Elçinin yaradıcılığı əsasında)", İradə Kərimovanın "Müasir ədəbiyyatda insan konsepsiyası: (S.Vurğunun "İnsan" mənzum dramı və E.Mejelaytisin "İnsan" şeirlər silsiləsi əsasında)", Hicran Nəsibovanın "Müasir Azərbaycan lirikasında insan konsepsiyası (1960-80-ci illər)" və s. əsərləri misal gətirmək olar. Bu tədqiqatların əhəmiyyətini və hər birinin filoloji fikrimizə qatdığı dəyəri yüksək qiymətləndiririk.

Lakin qeyd etməliyik ki, 2000-2010-cu illər nəsri bütöv və özünəməxsus bir mərhələ kimi ilk dəfə psixoloji aspektdən təhlilə cəlb olunur. Məsələnin indiki şəraitdə həlli isə tədqiqat predmetinin yeni nəzəri-estetik meyarlara davamlılığı və uyğunluğu yoxlanılmaqla baş tuta bilər.

Belə ki, "bədii psixologizm"dən terminoloji istifadənin tarixi aspekti rus-sovet ədəbiyyatşünaslığının xronoloji çərçivələri ilə, regional genişliyi isə indiki MDB, daha konkret desək, postsovet ölkələri ədəbiyyatşünaslığı ilə məhdudlaşır. Avropa və Amerika ədəbiyyatşünaslığı isə ədəbiyyatda psixoloji məzmunu araşdıran tədqiqatlarını "psixoloji analiz" başlığı altında və ya qeyri-məhdud

çərçivəli "ədəbiyyat və psixologiya" sərlövhəsi ilə terminləşdirir. Hətta Türk ədəbiyyatşünaslığında da psixologizm termini işlənmir, daha çox "psikanaliz", "psikoanalitik yorum", "psikanalitik edebiyat kuramı" anlayışlarından istifadə edərək ədəbiyyat və psixologiya arasındakı münasibətləri nəzəri cəhətdən əsaslandırır[1].

Ümumiyyətlə, müstəqillik dövrü Azərbaycan nəsrinin psixoloji imkanlarını görmək və adlandırmaq üçün ilk növbədə tədqiqat predmetinə aydınlıq gətirilməli, metodoloji yanaşmanın çərçivələri düzgün təyin edilməlidir. Buna görə də, 2000-2010-cu illər nəsrimizdə psixologizmin öyrənilməsi həm ədəbi tarixi mərhələni səciyyələndirmək, həm də nəzəri-estetik cəhətdən izah etmək aspektlərindən aktualdır və yenidir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyektini müstəqillik dövrünün 2000-2010-cu illərini əhatə edən Azərbaycan nəsri təşkil edir. Tədqiqat predmetinə nəsrdə, bütövlükdə ədəbiyyatda psixologizmin mahiyyəti, psixoloji hal və vəziyyətlərin estetik təsviri, insan psixologiyasının bədii mətnin struktur-semantik bütövlüyündə əxz olunmasının prinsip və meyarları, psixoloji ovqat və duyğunun ifadəsi, psixoloji məqamların obrazlaşması prosesinin tədqiqi daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi 2000-2010-cu illər Azərbaycan nəsrində psixologizmin tədqiqi, müasir meyarlar kontekstində bədii-estetik mahiyyəti və funksiyasının geniş elmi-nəzəri şərhini verməkdir. Tədqiqat obyektinə dolğun və hərtərəfli elmi-nəzəri prizmadan yanaşa bilmək məqsədilə aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

– tədqiqatın predmetinə aydınlıq gətirmək, ədəbiyyatda psixologizm anlayışını yeni nəzəri-estetik dəyərlər kontekstində şərh etmək;

– 2000-2010-cu illər Azərbaycan nəsrinin psixoloji mənzərəsini kompleks təhlil etmək və onun geniş şərhini vermək;

---

[1] Budak, A. Psikanalitik edebiyat eleştirisi ve bir uygulama denemesi / Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi, – aralık 2009. Issue 25, p. 13-25; Cebeci, O. Psikanalitik edebiyat Kuramı/ O.Cebeci. – İstanbul: İthaki, – 2004. – 599 s.; Özen, Ö. Psikoanaliz ve edebiyat: iki terapist yoldaş: // Uluslararası kültürel ve sosyal araştırmalar dergisi, – 2020. No 6(1), – s.9-16. URL: https://dergipark.org.tr/tr/download/article-file/1168305

– nəsr əsərlərinə bədii mətnin struktur-semantik bütövlüyü meyarı ilə yanaşaraq, psixoloji məzmunun bədii-estetik dərki mexanizmini izah etmək;

– bədii nəsrin personajlar heyətini psixologiya nöqteyi-nəzərdən dəyərləndirmək, şəxsiyyətin psixoloji strukturunun bədii mətndə obrazlaşmasını analiz etmək;

– müstəqillik dövrünün gətirdiyi yeni ictimai-siyasi və sosial məzmunun bədii tematikada ifadəsində psixoloji nüanslara diqqət yetirmək;

– nəsrdə psixologizmin poetik-funksional imkanlarını və ifadə vasitələrini təhlilə cəlb etmək, dilin psixopoetik funksiyası və üslub müxtəlifliyi yaratma qabiliyyətini, prozaik düşüncənin özünüifadə mexanizmi olan təhkiyənin formalaşmasında psixologizmin funksiyasını araşdırmaq;

– bədii nəsrdə psixoloji məzmunun fərqli təhkiyə üsulları ilə ifadəsini analiz etmək.

**Tədqiqat metodları.** Tədqiqatın metodologiyasını ədəbiyyat və psixologiya arasındakı əlaqələrin təyinatına yönəlik müxtəlif metodoloji yanaşmaların sintezi təşkil edir. Tədqiqat obyektinə və predmetinə münasibətdə müasir humanitar paradiqmalar nəzərə alınmış, xüsusilə psixologizm və antipsixologizm meyarları kontekstində ədəbiyyatda psixoloji nüansların təyin edilməsinə, adlandırılmasına cəhd edilmişdir. Bu zaman Qərb ədəbiyyatşünaslığına aid psixoanalitik təhlil və rus-sovet filoloji konsepsiyası olan psixologizm metodları müqayisə müstəvisinə gətirilərək, müasir meyarlarla uyğunluğu yoxlanılmış, ən uyğun və optimal variantın tətbiqinə üstünlük verilmişdir. Tədqiqat obyektinə metodoloji yanaşmanın yeniliyini nəzərə alaraq tədqiqatın birinci fəslində metodoloji yanaşmanın özünün də şərhinə xüsusi yer ayrılmışdır. Bədii nəsrdə psixoloji amillərin filoloji şərhində yeri gəldikcə, müqayisəli, analitik, təsviri, mətnlərin daha dərin qatlarında gizlənmiş psixoloji situasiyanı aşkarlamaq məqsədilə narratoloji, struktur-semiotik, psixoestetik, psixopoetik metodlara müraciət olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Psixologizmin müasir humanitar-filoloji fikirdə davamlılığını şərtləndirən amillər var, onları görmədən, təsnif etmədən və

adlandırmadan nəsrdə psixologizmi tam şəkildə izah etmək qeyri-mümkündür;

– Psixologizm rus-sovet ədəbiyyatşünaslığında formalaşmış bir termin olsa da, kökləri daha dərindir, multidisiplinar psixologizmlə qohumluq münasibəti var. Bu münasibət sayəsində postsovet məkanında özünü qoruya bilir, filoloji konsept kimi doğruldur;

– 2000-2010-cu illər nəsrini psixoloji aspektdən dəyərləndirmək psixologizm və antipsixologizm konsepsiyalarının sinkretikliyində mümkündür;

– 2000-2010-cu illər nəsrinin bütöv müstəqillik dövrü nəsrinin tarixində xüsusi rolu vardır. Bədii-estetik düşüncənin dəyişməsi və yeni məzmun kəsb etməsi ilə xarakterizə olunur. Psixologizm bu prosesin şərhində ciddi rol oynayır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işi 2000-2010-cu illər Azərbaycan nəsrində psixologizmin öyrənilməsinə həsr olunmuş ilk tədqiqat işidir. Eyni zamanda Azərbaycan filoloji fikrində ilk dəfə psixologizmin mövcud terminoloji məzmunu müasir elmi-nəzəri yanaşmalar çərçivəsində araşdırılır. Tədqiqat işində aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

– Psixologizm multidisiplinar anlayışdır. Humanitar düşüncənin fəlsəfi, sosial, ictimai, kulturoloji, estetik və s. sahələrində işlənir, lakin ayrı-ayrı sahələrdə kəsb etdiyi məzmunlar ümumi məğzlə birləşir ki, bu da insan/subyekt amilinin dominantlığıdır;

– Azərbaycan nəsrində psixologizmin aşkar və gizli/latent formalarına diqqət yetirilmişdir. Aşkar formada müəllif mövqeyində, obrazların psixoloji strukturunda, bədii mətnin tematikasında görünən, gizli formada mətnin üslubunda, poetik konstruksiyasında, təhkiyə mexanizminin içində ərimiş formada olan psixologizmlə bağlı situasiya və hallar təhlilə cəlb olunmuşdur;

– 2000-2010-cu illər bədii nəsri canlı orqanizm kimi izlənilmiş, mətnin şüur və şüuraltı qatları tədqiq edilmişdir;

– Bədii nəsrin tematikasında müstəqillik dövrünün gerçəkliklərinin gətirdiyi yeniliklərin psixo-sosial aspektləri təhlil olunmuşdur;

– Bədii obrazın psixoloji əsasının şərhinə səthi və təsviri yanaşılmamış, psixologiya elminin şəxsiyyətin strukturu ilə bağlı

nəzəriyyələrindən istifadə olunmuş, müxtəlif konsept modellərlə Azərbaycan nəsrinin qəhrəmanları təhlilə cəlb olunmuşdur;

– 2000-2010-cu illər nəsri ilk dəfə psixopoetik, psixostilistik və psixonarrativ imkanları baxımından dissertasiyanın müvafiq fəsil və paraqraflarında araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya mövzusu həm nəzəri, həm də praktik baxımından əhəmiyyətlidir. Tədqiqat işinin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, ədəbiyyat və psixologiya əlaqələrinin şərhi istiqamətində filoloji fikirdə yeni araşdırmalara tətbiq oluna biləcək metodoloji baza və istiqamət təqdim edir. Psixologizmə yeni elmi-nəzəri yanaşmalar müstəvisində dəyər qazandırmaqla müasir ədəbiyyatın psixoloji mahiyyətinin şərhində aktual məqamlara diqqət çəkir. Bu işin nəticə və yenilikləri psixologizmə həm mətnin poetik elementi kimi müraciət, həm də təhlil metodologiyası kimi istifadə aspektləri baxımından Azərbaycan ədəbiyyatşünaslığında aparılacaq gələcək tədqiqatlara istiqamət verəcək potensialdadır. Tədqiqatın praktiki əhəmiyyəti isə informativliyi və tədris prosesində tətbiqi imkanları ilə şərtlənir. Dissertasiya müstəqillik dövrü nəsrinin öyrənilməsində Azərbaycan ədəbiyyatı tarixi fənni kontekstində praktik əhəmiyyət daşıyır. Dissertasiyada ədəbiyyat və psixologiya arasındakı əlaqələrin dərin və hərtərəfli izahına cəhd edilməsi ədəbiyyatşünaslıqda metodoloji müxtəlifliyin öyrənilməsində, xüsusilə nəzəriyyədə psixoloji metodla bağlı bilgi və vərdişlərin formalaşdırılmasında tədqiqatdan əlavə praktiki dərs vəsaiti kimi istifadə imkanları verir.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə edilən nüfuzlu elmi jurnal və məcmuələrdə, xarici elmi nəşrlərdə, beynəlxalq səviyyəli konfrans və simpoziumlarda etdiyi məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Dillər Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından

ibarətdir. Dissertasiyanın Giriş hissəsi 8 səhifə, 14656 işarə, I fəsil 43 səhifə, 86667 işarə, II fəsil 46 səhifə, 93276 işarə, III fəsil 31 səhifə, 62359 işarə, Nəticə hissəsi 4 səhifə, 8186 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 265144 işarədir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, dissertasiyanın elmi yeniliyi, tədqiqat metodları, obyekti və predmeti, məqsəd və vəzifələri, nəzəri-praktiki əhəmiyyəti, aprobasiyası, strukturu AAK-ın tələblərinə uyğun şəkildə göstərilmişdir.

Tədqiqat işinin birinci fəsli **"Psixologizm yeni nəzəri-estetik dəyərlər kontekstində"** adlanır və dörd paraqrafdan ibarətdir. ***"2000-2010-cu illər nəsrinin psixoloji aspektləri və metodoloji yanaşma problemi"*** adlı birinci paraqrafda müstəqillik dövrü nəsrinin psixoloji aspektlərinə diqqət yetirilmiş, mövcud situasiyaya yanaşma probleminin nəzəri-estetik parametrlərinə münasibət bildirilmişdir.

Ədəbiyyatla psixologiya arasındakı əlaqə sıx və dərindir. Birincisi, hər ikisi insanla bağlıdır, insan haqqındadır. İstənilən bədii mətn müəyyən psixoloji vəziyyətin ifadəsi və məhsuludur. İkincisi, ədəbiyyatşünaslıq bədii-estetik məsələlərin və problemlərin tədqiqi zamanı psixologiya elminin qənaətlərindən istifadə edir. Eləcə də, psixologiya elmində də psixoloji problemlərin şərhində ədəbiyyata müraciət olunur. Adətən, ədəbiyyat və psixologiya arasında əlaqə mətnləri təhlil etmək, yaradıcılıq prosesinin mahiyyətini anlamaq üçün formal şəkildə psixologiyadan istifadə etməklə (psixoloji təhlil vasitəsilə) qurulur. Deməli, istənilən halda ədəbiyyat psixoloji hadisədir.

Azərbaycan ədəbiyyatı da Azərbaycan insanının mənəvi-ruhi tərcümeyi-halıdır. Tarixi, ictimai, siyasi, mədəni, fəlsəfi, estetik dəyişmələrdən, müxtəlif mərhələlərdən keçərək öz insanının böyük hekayəsini nəql edir, özünə xas modellər təqdim edir. Buna görə də, müstəqillik dövrü Azərbaycan ədəbiyyatının da psixoloji aspektdən şərhi mürəkkəb problemdir. Psixologizmlə bağlı tədqiqatlara qısaca

və ötəri baxış dərhal göstərir ki, yanaşmalarda vəhdət və fikir birliyi zəifdir. Xüsusilə, rus-sovet ədəbiyyatşünaslığı ilə Qərb ədəbiyyatşünaslığının təcrübəsi bu sahədə bir-birindən fərqlənir. Qərb elmi-nəzəri fikrində psixologizm terminınə rast gəlsək də, bu tamamilə fərqli kontekst və məzmundadır.

Fəslin ikinci paraqrafı ***"Qərb ədəbiyyatşünaslığında ədəbiyyat və psixologiya məsələləri: psixoanalitik təhlil"*** adlanır. Belə bir ümumi qənaət var ki, psixoloji tənqidin gerçək yaşı XIX əsrdən, psixologiya elminin müstəqil şəkildə formalaşması ilə eyni dövrdən başlayır. Bu əsrə qədər geniş fəlsəfə çətiri altında olan psixologiya ilk dəfə ayrı bir elm sahəsinə çevrilmiş, fəlsəfədən ayrılmış və öz hekayəsini yazmağa başlamışdı. Psixoloji təhlil psixologiyadan ədəbiyyata baxmağın qaydalarını, normativ prinsiplərini hazırlamış, estetik düşüncəni psixoloji akt kimi şərh etmişdir.

Ümumiyyətlə, psixologizm dünya elmi-nəzəri fikrinin mübahisəli və multidisiplinar anlayışlarından biridir. Müasir psixologiya elminin əsasları fəlsəfi psixologizm konsepsiyalarının daxilində yetişmiş, antropoloji, fizioloji tədqiqatların içindən keçərək nəticədə psixologiya elminin müstəqilləşməsinə səbəb olmuşdur. XVIII əsrdən sonra, xüsusilə XIX əsrdə bəşəriyyət epistemoloji çevriliş yaşayır. Bu epistemoloji qırılma sənət, mədəniyyət, fəlsəfə və elm kimi sahələrdə ilk dəfə keçmişdən müstəqil və sırf gələcəyi hədəfləyən hərəkətlərə səbəb oldu. Modern düşüncə fərdi şüurluluğu və subyektivliyi daxilində qavramağa can atmışdır. Yeni dönəmdə qneseoloji/epistemoloji fəlsəfə psixoloji, sosioloji və məntiqi istiqamətlərdə formalaşırdı. Tədqiqat predmetimiz olan psixologizm anlayışının geniş humanitar mənası və multidisiplinar məzmunu məhz psixoloji istiqamətdə ortaya çıxmışdır. Bu dönəmdən etibarən psixologizm və ardınca antipsixologizm məsələləri humanitar elmlər kompleksinin əsas mübahisə predmetinə çevrilmişdir, desək, heç də yanılmarıq.

Adətən, belə fikir var ki, müasir psixologiya məhz Ziqmund Freyd və onun psixoanalizi ilə başlayır. Həmidə Əliyeva bu barədə haqlı olaraq yazır: *"Mənəvi və mədəni həyatın bir çox sahələrinin dərindən tədqiqinə şərait yaradan psixoanaliz nəzəriyyəsinin əsas müddəaları və ideyaları, xüsusilə bədii ədəbiyyatın təhlilində, yazıçı və şairlərin yaradıcılıq motivlərinin üzə çıxarılmasında, personajların*

*psixologiyasının açılmasında istifadə olunmağa başlandı”*[2]. Aydındır ki, ədəbiyyat psixoloji məzmunla bədii məzmunun sinkretikliyi üzərində qurulur. Bu sinkretizmin adlandırılması məhz Z.Freydin psixoanalitik təhlilləri ilə başlayır. Ondan sonra Alfred Adler, Karl Qustav Yunq, Jak Lakan, Erix Fromm, Vilhelm Reyx, Otto Rank, Rollo Mey, Melani Klayn və başqalarının əsərlərində ədəbiyyat psixologiyanın predmetinə çevrilir. Bu psixoloqların hər biri müəyyən anlayışları, hadisələri və nəzəriyyələri təhlil edərkən ədəbiyyatdan ciddi şəkildə bəhrələnmişdir[3]. Hər bir ədəbi personaj psixoloji tədqiqat üçün bir situasiya rolunu oynamışdır. Amerikalı tənqidçi Norman Hollanda görə, o zamandan bu günə qədər ədəbiyyatın psixoloji metodla öyrənilməsi psixologiya elminin inkişafındakı üç mərhələyə görə üç fərqli etapdan keçir: psixoanalitik (Freydçi), arxetipik (yaxud analitik və ya Yunqçu) və idrak (koqnitiv) psixologiyası [4] . Ümumiyyətlə, psixologiyanın bir elm kimi bir çox başqa sahələri olsa da, psixoanaliz psixoloqlarla ədəbiyyatçıların ən çox yaxınlaşdığı müstəvidir. Psixoanalizin hermenevtik mahiyyəti onu ədəbiyyata yaxınlaşdıran əsas məsələdir.

Fəslin növbəti paraqrafı ***“Rus-sovet və postsovet düşüncəsində psixologizm ədəbi-nəzəri kateqoriya kimi”*** adlanır. Bu gün psixologizm termininin işlənmə aktivliyi postsovet regionu üçün xarakterikdir. Dünya ədəbiyyatında psixologizmin öyrənilməsi istiqamətindəki tədqiqatların da müəllifləri əsasən bu regiondandır.

Rus alimi Nikolay Andreyev haqlı olaraq yazır: *“Bu gün ədəbiyyatda psixologizm bir növ humanitar mifə çevrilib. Onunla bağlı, sanki, hər şey sadədir, amma heç bir şey aydın deyil”*[5]. Bədii psixologizmlə bağlı vahid konsepsiyanın yaradılmasındakı

---

[2] Əliyeva, H. Psixoanaliz və Şekspir yaradıcılığı [Elektron resurs]/ - 12.01.2023. URL: https://sim-sim.az/h%C9%99mid%C9%99-%C9%99liyeva-psixoanaliz-v%C9%99-sekspir-yaradiciligi/

[3] Naykı, N.K. Edebiyat Çalışmaları ve Psikoloji//PIVOLKA, – 2012. No 22, – s.9. URL: https://www.elyadal.org/pivolka/22/edebiyat.htm

[4] Holland, Norman Norwood. Holland's Guide to Psychoanalytic Psychology and Literature and Psychology / N. Holland. – USA: Oxford University Press, – 1990. – p.30-34

[5] Андреев, А.Н. Основы теории литературно-художественного творчества: пособие для студентов филол. фак. / А.Н.Андреев. – Минск: БГУ, – 2010. – с.153

çətinliklərdən birincisi, "psixologizm", "psixoloji təhlil" və "psixoloji obraz" anlayışlarının bir-biri ilə qarışdırılması ilə bağlıdır. İkinci problem, psixologizmi bədii mətnin hər hansı elementi kimi görmək və mətnin ümumi əlaməti, keyfiyyəti kimi şərh etmək arasındakı uyğunsuzluqda özünü büruzə verir, bu da nataraz metodoloji dağınıqlığa səbəb olur. Üçüncüsü isə, bədii mətnin ritorik üçbucağında, yəni müəllif-qəhrəman-oxucu səviyyələrində psixologizmin tətbiqinin və tədqiqinin qeyri-müəyyən korrelyasiyaya səbəb olmasıdır [6]. Olqa Zolotuxinanın problemləri bu şəkildə ümumiləşdirməsini doğru hesab etməklə yanaşı, əlavə olaraq qeyd etmək istərdik ki, dolaşıqlığın bir səbəbi də psixoloji və sosioloji məqamların sərhədlərinin qeyri şəffaflığı, Qərb və Şərqdə insan modeli və konsepsiyasının fərqləri, ideoloji sistemlərin insana yanaşma tərzi, dəyərləndirmə paradiqmaları, öncəliklər, öhdəliklər və s. kimi amillərin bu prosesə təsir etməsidir.

Rus-sovet filologiyasında psixologizmin bədii-estetik və nəzəri dərki XIX əsrdə marksist estetika ilə başlamış, 1910-1920-ci illərdə freydizm və ya freydomarksizm fonunda davam etmiş, psixologizm və antipsixologizm qarşıdurmaları ilə müşahidə olunmuş, 1930-1960-cı illərdə ideoloji məzmun qazanmış, 1960-cı illərdən sonrakı dönəmdə isə nəzəri və tarixi kateqoriya kimi öyrənilmişdir. Ən son dövr isə postsovet humanitar məkanında psixologizmlə bağlı araşdırmaların ideoloji senzura və qəliblərdən kənarda yenidən gündəmə gəlməsi ilə bağlıdır. Bu bölgünü ədəbiyyat və psixologiya arasındakı əlaqələrin öyrənilməsinin müxtəlif metodoloji mərhələləri kimi də qəbul etmək olar.

Azərbaycan filoloji fikrində psixologizmin öyrənilməsi və tətbiqi sovet təcrübəsi ilə bağlı olub. Ədəbiyyatşünaslığımızda psixologizmin konseptual şərhi akad. Muxtar Kazımoğlu İmanovun adı ilə bağlıdır. Onun "Müasir Azərbaycan nəsrində psixologizm" [7] adlı tədqiqat əsəri həm məsələyə konseptual yanaşma, həm də özündən sonra ədəbiyyatşünaslıqda xüsusi istiqamətin yaranması baxımından böyük elmi-praktiki əhəmiyyət daşıyır.

---

[6] Золотухина, О.Б. Психологизм в литературе: пособие / О.Б.Золотухина. – Гродно: ГрГУ, – 2009. – с.13

[7] İmanov, Muxtar. Müasir Azərbaycan nəsrində psixologizm: 60-70-ci illər/ M.İmanov. – Bakı: Elm, – 1991. – 116 s.

Muxtar İmanov psixologizm məsələsinin qoyuluşu, həlli, mövcud nəzəriyyələrdəki izahını dolduran və doldurmayan tərəfləri ilə birlikdə kompleks yanaşma irəli sürmüşdür. O, tədqiqatında psixologizmin əhatə dairəsinin genişliyini, insanın arxaik düşüncə ilə bağlılığını və s. qeyd etmiş, psixoloji təhlili ədəbiyyat və psixologiya müstəvisində bütün qatlarda funksiyası olan geniş bir termin kimi görmüşdür. Bununla psixologizmi ənənəvi, dar məzmundan çıxarmış, psixoanalitik təcrübənin mərhələləri ilə bağlılığını önə sürmüşdür. Mif və folklorla arxetipik əlaqələrin müasir insanın, xüsusilə ədəbiyyat insanının təkzibolunmaz psixoloji gerçəkliyi kimi şərh etmişdir. Tədqiqatın bu istiqamətə yönəlməsi tədqiqatçının özünü də folklor nəzəriyyəsinə istiqamətləndirmişdi.

Bu gün müasir nəsrin tədqiqində psixologizmin predmet kimi mümkünlüyü sinkretik yanaşma tələb edir. Çünki, müasir nəsrin çoxmetodlu, çoxüslublu – plüralist fonunda sovet qəlibli psixologizm özünü doğrultmur. Lakin psixologizmin ideoloji yükünü yüngülləşdirmək, psixoanalitik xətlə uzaqdan qohumluq bağlarını ön plana çəkmək, müasir filoloji meyarlarla təqdimat tam yetərli olmur. Ortaya daha ciddi bir filoloji maneə çıxır: psixologizm və antipsixologizm qarşıdurması. Bu problemə fəslin sonuncu paraqrafında – ***"Psixologizm və antipsixologizm qarşıdurmasının filoloji məzmunu və yeni meyarlar"*** başlığı altında münasibət bildirilmişdir. Müstəqillik dövrü Azərbaycan nəsrində psixologizmin öyrənilməsi zamanı filoloji və metodoloji natarazlığa səbəb olan amillərdən biri psixologizm və antipsixologizm qarşıdurmasıdır.

XX əsrin əvvəlləri psixologizm konsepsiyalarına qarşı antipsixologizm konsepsiyalarının formalaşdığı, xüsusilə fenomenoloji istiqamətdə özünü göstərən tədqiqatların önə çıxdığı dönəmdir. Humanitar bilik və onun müxtəlif sahələrinin psixologizmə əsaslanan dünyasında əsas sual "kim?"dir, subyekt amili qabarıqdır, subyektiv olan dominantdır, bütün problemlər öz həllini subyektin mövqeyini izah etməklə tapır [8]. Psixologizmə əsaslanan humanitar-filoloji konsepsiyalarda önəmli olan insanın –

[8] Сорина, Г.В. Логико-культурная доминанта. (Очерки теории по истории психологизма и антипсихологизма в культуре) / Г.В Сорина. – Москва: Прометей, – 1993. – с.115

subyektin özüdür. Buna görə də, ədəbi tənqidin əsasında əsərin qəhrəmanlarının və onu yaradan müəlliflərin psixoloji təhlili dayanır. Ədəbiyyatşünaslıq müəllifin və əsərdəki insanın ruhunu, onun hisslərini, inanc və düşüncələrini təhlil edərkən fərziyyələr irəli sürür, bir növ psixoloji hermenevtika ilə məşğul olur.

Humanitar elmlər kompleksində antipsixologizmin ümumi tezisi isə belədir: heç bir elmin, o cümlədən psixologiyanın məzmununu psixoloji baxımdan izah etmək və əsaslandırmaq olmaz. Bunun psixi proseslərlə heç bir əlaqəsi yoxdur. XX əsr bütövlükdə antipsixologizm əsri hesab olunur. *"Antipsixologizm modernizmin, xüsusilə postmodernizmin əsas paradiqmalarından biridir və mədəniyyət hadisələrinin (fenomenlərin) şərhində subyekt amilinin proqramlı şəkildə aradan qaldırılması prosesidir"*[9]. M.Mojeykonun fikrincə, XX əsr ədəbiyyatşünaslığına "Müəllifin ölümü", "Subyektin ölümü" kimi anlayışları gətirən bu paradiqmadır.

Belə qənaətə gəlmək olar ki, bu gün müasir yanaşmalar kontekstində psixologizm fenomeni ədəbiyyatda psixoloji amilləri bütün məqamlarda, semantik-semiotik-struktur qatlardakı təzahür formalarında tapmağa imkan verən bir anlayış, ədəbiyyatın immanent xüsusiyyəti kimi özünü təqdim etdiyi təqdirdə qəbul edilə bilər, metodoloji doğruluq göstərər. Bu immanentliyi aşkarlamaq, bədii nəsrin forma və məzmun bütövlüyündə estetik kateqoriya kimi araşdırmaq daha doğru yoldur.

Bu fəsildə alınan elmi nəticələr Respublikada nüfuzlu jurnallarda çap edilmişdir[10].

Dissertasiya işinin ikinci fəsli **"Psixoloji məzmun və onun nəsrdə bədii-estetik dərki"** adlanır. Bu fəslin ***"Mif və folklor nəsrin psixoloji qaynaqları kimi: arxetiplərin funksiyası"*** adlanan birinci paraqrafında qeyd olunur ki, müstəqillik dövrü Azərbaycan nəsrini

---

[9] Можейко, М.А., Александров, П.С. Антипсихологизм: [Электронный ресурс] / Гуманитарный портал: Концепты/ -17.04.2023. URL: https://gtmarket.ru/concepts/7327

[10] Ələkbərli, S.Ə. Ədəbiyyatın psixoanalizi: metodoloji əsasları və nəzəri meyarları // – Bakı: AMEA, Filologiya və Sənətşünaslıq, – 2023. № 1, – s.135-143; Ələkbərli, S.Ə. Rus-sovet ədəbiyyatşünaslığında psixologizm məsələsi: metodoloji istiqamətlər və mərhələlər // – Bakı: Azərbaycan Dillər Universiteti, Elmi xəbərlər, – 2023. №2, – s.124-131.

bütöv estetik, poetik və linqvistik hadisə kimi qəbul edəndə o özü canlı bir orqanizmə çevrilir. Bu orqanizm bizə şüur, şüuröncəsi, şüuraltı qatlarda baş verən psixi fəaliyyətin estetik nəticəsini təqdim edir. Azərbaycan nəsrini insan kimi metaforlaşdırsaq onun altşüuru mif və folklorla birbaşa bağlıdır. Bu ilk psixoloji qaynaqdır, əlaqəni quran isə arxetiplərdir. Daha doğrusu, arxetip situasiyaların universallığı və daimiliyidir. Nəsrin məzmun və forma qatında, onun bütün narrativinə yayılan hər şeyin arxasında arxetipik strukturu təyin etmək mümkündür. İnsanın özünüdərki və özü haqqında psixoloji şərhinin tarixçəsi mifoloji dünyagörüşlə başlayır.

Bəlkə də buna görədir ki, 2000-ci illər nəsrində çevriliş etmiş əsər kimi dəyərləndirilən "Yarımçıq əlyazma"da Basat və Təpəgöz qarşıdurması yer alır. "Təbiət-mədəniyyət" ikili qarşıdurmasının bir tərəfi kimi xaotik, sahmansız başlanğıcın "Kitabi-Dədə Qorqud"da, "Basatın Təpəgözü öldürdüyü boy"da özünün mifoloji-tarixi təsvirini tapmasını dəqiqliklə müşahidə edən yazıçı Kamal Abdulla yazır ki, aslan yatağı təbiətin simvoludur. Onun fikrincə, Basatın mədəniləşmiş mühitə qaytarılması, böyüdüyü məkana yenidən can atması mifopsixoloji mahiyyətə malikdir.

"Yarımçıq əlyazma" romanında müəllifin "Kitabi-Dədə Qorqud" dastanından götürdüyü motivlərin psixoloji gərginliyi diqqət cəlb edir. Romanda detektiv psixologiya mətnin səthi qatını sahmana salır, alt qatın səliqəsində isə etnoqrafik psixologiyanın arxetipik layları təşkilatçılıq edir. "*Kölgəlicə qaba Qarağac kölgəsini xalı kimi döşədiyi"* bu etnopsixoloji ortam dərinliyi ilə səciyyələnir. Romanın səthi qatında psixoloji detektivlik xətti ilə casusun qaçırılması cinayətinin izini izləmək üçün personajların hadisələr qarşısında buraxdıqları emosional və intellektual izlər təhkiyəyə cəlb olunur.

Buradakı psixologizm də özünəməxsus səciyyə daşıyır. Bu mədəni düşüncənin diaxron dinamikasında insanı anlamaq cəhdidir. İnsanı anlamaq isə onun dilini anlamaqla mümkündür. Detektiv psixoloqlar insanların reaksiyalarının arxasındakı stimulların qaynaqlarını, hansı stimulun hansı reaksiya ilə ifadə olunmasını müşahidə edirlər. Yazıçı Kamal Abdulla isə öz mətnlərinə psixolinqvistik həssaslıqla yanaşır, dil detektivliyinə köklənir, sözlərin arxasındakı mifik enerjini və transformasiyaları izləyir.

Qazan xan, Bəkil, Beyrək, Aruz, Basat, Şir Şəmsəddin, hətta Təpəgöz bu dil detektivliyində psixoloji gerçəklikləri ilə baş-başa qalırlar. Onların düşdüyü vəziyyətlər isə etno-mədəni kəsişmə xəttində – vahid bir üfüqdə birləşir.

Yazıçı Anarın "Ağ qoç, qara qoç" əsərində Məlik Məmmədli adlı personajı nağıl qəhrəmanı Məlikməmmədlə birləşdirən arxetip əlaqədir. Bu da mətnin bütövlükdə Məlikməmmədin nağılı ilə intertekstual ünsiyyətinə zəmin yaradır. Nağıl mətni və roman mətni arasındakı bu mətnlərarası münasibətə ağ qoç və qara qoç motivindən istifadə də səbəb olur. İnsanın düşdüyü çətin situasiyadan çıxış imkanlarının duallığı mətnin psixoloji gərginliyinə aydınlıq gətirən vasitəyə çevrilir. Bu dual yanaşma mətnin janrında da ikiləşməyə səbəb olur.

Psixologizmin antipsixologizmə doğru zəiflədiyi müasir estetikada insanın psixi həyatı ritorik fiqurlarda birbaşa təcəssüm oluna bilmir. Antipsixologizm psixologizmi aradan tam qaldıra bilməsə də ciddi dərəcədə sıxışdırır, bu zaman sonuncu özünü ifadə üçün çox fərqli forma tapır. Analitik şərhə, səbəb-nəticə əlaqəsinə, ətraflı izahata əsaslanan ənənəvi psixologizmdən fərqli olaraq antipsixologizm latent, qeyri-müəyyən formalarda təzahür edir, sinkretik xarakter daşıyır.

Romanın formasına fikir versək, görərik ki, əsər utopiya və antiutopiya janrlarının sinkretik vəhdəti şəklindədir. Deməli, formanın özü də psixologizm üçün bir təzahür vasitəsidir. Həm utopiya, həm də antiutopiyanın bir janr kimi diferensiasiyasında psixoloji olanı müəyyənləşdirsək, birbaşa pozitiv və neqativ əhval-ruhiyyə ilə qarşılaşarıq. "Ağ qoç, qara qoç" romanında xalqın psixoloji əhvalı işıqlı dünya (ağ qoç) və qaranlıq dünya (qara qoç) arasındakı gərginlik xətti ilə ölçülür. Etno-milli psixologiyanın yaddaşındakı bütün uğurlu məqamlarla kədərli məqamlar üz-üzə gətirilir. Tarixi, mədəni, milli kimliyin müxtəlif adlarda kodlanmış məzmunu romanın bütöv səthinə yayılır. Açıq və qapalı işarələr sayəsində tarixin, ədəbiyyatın, mədəniyyətin yaddaşındakılarla qurulan dialoqda məqsəd yetərincə aydın və konkretdir.

İkinci fəslin ikinci paraqrafı ***"Şəxsiyyətin psixoloji strukturu və bədii nəsrdə obrazlaşması"*** adlanır. 2000-2010-cu illər nəsrinin

personajlarını şəxsiyyətin struktur modeli baxımından təhlilə cəlb edəndə maraqlı insan tipləri ilə rastlaşırıq. “Sehrbazlar dərəsi” romanındakı Cəllad Məmmədqulu və Karvanbaşı şəxsiyyətin struktur və topoqrafik modeli aspektindən çox maraqlı obrazlardır. Əsər müasir dünyanın intiqam duyğusundan törəyən günahlarını keçmişin insanlarının hekayəsinin içində axtarır. Romanın Karvanbaşısı, Cəllad Məmmədqulusu və başqaları öz sehrbazlar dərəsində vird etməklə məşğuldurlar. Məsələ burasındadır ki, buradakı hər kəsin dərəsinə Freydin gözü ilə baxanda aysberq şəklini alır. Bu personajların bu günü və dünəni, indisi və keçmişi, şüuru və şüuraltısı arasında get-gəl yaşadığı ortaya çıxır.

Təbiət-mədəniyyət qarşıdurması ilə bağlı psixoloji situasiya Şərif Ağayarın “Haramı” romanında da qarşımıza çıxır. Müəllifin metatəhkiyə şəklində yazdığı bu romanda mətnəqədərki, mətn və mətndən sonra baş verənlər bir yerdə təqdim olunur. Romanda qəhrəman və antiqəhrəman xətti bir-biri ilə kəsişir. Bilirik ki, qəhrəman şəxsi və konkret tarixi məhdudiyyətlərini dəf edə bilmiş və bütün bəşəriyyətə xas olan universal formalara gəlib çıxmış kişi, yaxud qadındır[11]. Dünyanın bütün qəhrəmanları eyni arxetipik skeletə sahibdir və qəhrəman olmaq üçün səyahətə çıxmaq əsas şərtdir. Qəhrəmanın səyahətində evdən çıxış, inisiasiya (sınaqlar) və evə qayıdış mərhələləri yer alır və bunlar birləşərək monomifin blokunu qururlar. “Haramı” romanında Qoç Səməndərin hekayəsinin 12 əhvalatda təqdim olunması “Heraklın on iki qəhrəmanlığı” ilə qurduğu əlaqənin təzahürüdür və səyahət şəklindədir. Romanda Rəcəb İvedik – Don Kixot oxşarlığındakı postmodern ironiya da qəhrəmanın antiqəhrəmana çevrilməsini göstərir. “Dastani-Əhməd Hərami”nin Əhmədi tam mənfi xarakterdədir. Amma Səməndər zahirən Rəcəb İvedik, daxilən Koroğlu, əməlinə görə isə Əhməd Həramidir.

Səməndərə bənzər başqa bir obraz Aqşin Yeniseyin “Göləqarğısancan” romanındakı Leş Əlidir. “Göləqarğısancan” romanının Leş Əlisi personası olmayan, kölgəsinin əsarətində olan bir obrazdır. Onu həyatda ayaqda tutan tək şey instinktlərdir. Əgər Səməndərin personasında qəhrəman-antiqəhrəman savaşına

[11] Kempbell, C. Min simalı qəhrəman / C.Kempbell. – Bakı: Nərmin Yayın evi, –2020. – s.26

baxmayaraq xilaskarlıq xətti özünü qismən qoruyursa, "səməndərlik" etmək onun yarımçıq maskasıdırsa, Leş Əli maskasızdır, personadan məhrumdur.

Yazıçı Aqşin Yenisey Leş Əlinin "Mən"ini ələ keçirmiş fərdi kölgəsini kollektiv kölgənin bir təzahürü kimi təqdim edir. Belə ki, roman Leş Əlinin qaranlığının səbəbini kollektivin qaranlığı kimi izah edir, məhz bu sosial-psixoloji və ideoloji komplekslərini, yəni situasiyanı mətnləşdirir.

Psixoanalizə görə, insan persona və kölgəsi arasındakı tarazlığı qorumalıdır, daha doğrusu onları uzlaşdırmağı bacarmalıdır. Bu tarazlıq, fərqi yoxdur, istənilən tərəfin lehinə pozulanda psixi problemlər yaranır. Rafiq Tağının "Qoca Məcnun" hekayəsində oxucu bir qədər fərqli formada bu situasiya ilə rastlaşır. Hekayənin gedişatında görürük ki, Rafiq Tağı ironik mövqeyi və maarifçi ədası ilə bütövlükdə Şərqin Məcnun konsepsiyasını sorğulayır, bu sevgi modelini müasir dövrün şərtləri daxilində yoxlayır, analiz edir.

"Leyli və Məcnun" modelindən istifadə etməklə psixoloji gərginlik yaradan başqa bir hekayə isə Fəxri Uğurlunun "Leylinin məcnunluğu" hekayəsidir. Bu hekayədə şəxsiyyətin arxetipik strukturu tamamilə fərqli şəkildə bədiiləşir. Hekayənin fəlsəfi-estetik mahiyyəti "Məcnunun səhraya gedən yolu ilə Leylini səhraya gətirən yolun" kəsişməsindəki sirdə gizlənib və çox dərindədir. Ruhunu (Məcnununu) gövdəsindən (İbn Salamdan) ayıran sərhədi aydın xətlə cızan Leylinin məcnunluğunun mahiyyəti estetik ideyaların və təsvirlərin içində gizlidir. Məcnunluğu ideya-estetik hadisə kimi düşünəndə onun məzmununu dolduran mənası Şərqin bütün Məcnunlarının və Leylilərinin birləşərək yaratdığı məna yığımında axtarmaq lazımdır. Ümumiyyətlə, Fəxri Uğurlunun yaradıcılığında öz arxetipinin bədiiləşməsinə tez-tez rast gəlinir. Belə hekayələrdən biri də "Məryəmin oğlu"dur. Ayrıca, hekayədə anima və animus xəttinin fərqli bir funksiyası var. Bir-birinə həqiqətləri öyrətmək. Belə ki, Qadının mərhum sevgilisini özünə müəllim hesab etməsi, eləcə də özünün Məryəmin oğluna münasibətindəki müəllimliyi diqqət çəkir.

İkinci fəslin üçüncü paraqrafı ***"Yeni sosial-psixoloji məzmun və nəsrdə inikası üsulları"*** adlanır. Müstəqillik dövrü özü ilə yeni reallıqlar gətirdi. Əgər, 1990-cı illər yeni ictimai-sosial və siyasi

reallıqlarla tanışlıq idisə, 2000-ci illər bu tanışlığın dərki dönəmidir, desək yanılmarıq. 20 yanvar faciəsi və I Qarabağ müharibəsi gerçəkliyin nəsrə təqdim etdiyi ən dəhşətli mövzuların qaynaqları idi.

Bu gün biz Qarabağ müharibəsində qalib gəlmiş, torpaqlarımızı düşmən tapdağından azad etmiş xalqıq. Lakin müharibənin birinci mərhələsinin acıları ədəbiyyatımızın yaddaşında yaşamağa davam edir. Sabir Əhmədlinin “Ömür urası” romanının da əlamətdar xüsusiyyəti bundan ibarətdir ki, müharibənin travmatik fonunda real həyat həqiqətlərini, müasir zamanın hadisələrini psixoloji prizmadan canlandırır, personajların xarakterində baş verən hissləri dərindən ifadə edir. Qaçqın psixologiyasının təsvirinə önəm verən yazıçı kişilik, mərdlik, qeyrət kimi anlayışların arxa planında qalan kollektiv komplekslərin zədələnməsini mətnləşdirir. Aqil Abbasın “Çadırda Üzeyir Hacıbəyov doğula bilməz” romanında da müəllim/kişi paradoksu var. Əsərin qaçqın personajı Müəllim üç zamanda və üç psixoloji situasiyada təsvir edilir. Məğlubiyyət, utanc və bərpa bu psixoloji situasiyaları izah etmək üçün ən uyğun sözlərdir.

Müharibənin bədii nəsrə nüfuzu təkcə müharibə və onun iştirakçılarının obrazlaşması ilə bitmir. Bu dövrün əksər nəsr əsərlərində postmüharibə xronotopu birləşdirici xətt kimi keçir. Postmüharibə dönəminin sosial böhran ab-havası və dekadans ruhu bu fərdləri sanki psixoloji məkana dəvət edir. Bu məkanda bizi ictimai-siyasi və sosial reallıqla üzləşmiş, dəyişən, dəyişməkdə olan ağır psixoloji əhval-ruhiyyəli obrazlar qalereyası qarşılayır. İnsanın öz “evindən uzaqda olması” müharibədən sonrakı dönəmin əsas psixoloji problemlərindən biri idi və nəsrin obyektivindən uzaqda qala bilməzdi. Yazıçı Elçinin “Qaçqınlar” silsiləsi adı ilə təqdim etdiyi hekayələr də birbaşa bu məsələnin tematikləşdirilməsidir.

Yazıçının “Bayraqdar” povesti məhz qaçqın psixologiyasının özü və onu yetişdirən stress faktorlar üzərində qurulur. Şərif Ağayarın “Kərpickəsən kişinin dastanı” adlı povestində də eyni məntiqlə rastlaşırıq. Saday Budaqlının “Əclaf” adlı hekayəsindəki Salman və Feyzi də postmüharibə insanlarıdır. Müstəqilliyin ilk illərində, müharibənin ağır fəlakətləri fonunda və yeni reallıqlar şəraitində insanın düşdüyü sosial-psixoloji böhran öz rəmzi ifadəsini Seymur Baycanın publisistik səciyyəli “Quqark” romanında da tapır.

Səfər Alışarlının "Maestro", Mövlud Süleymanlının "Erməni adındakı hərflər", "Yəhudi əlifbası", Pərviz Cəbrayılın "Yad dildə", "Öləngi" və s. əsərləri də yeni sosial-psixoloji məzmuna reaksiyadan yaranmış əsərlər idi. Bu əsərlərdə yeni Azərbaycan insanı öz psixobioqrafiyası ilə modelləşə bilir.

Ümumiyyətlə, müstəqillik dövrünün gətirdiyi yeni sosial-psixoloji mündəricənin mətnləri özünə bənzətmək kimi bir xüsusiyyətini də müşahidə etmək olar. "Yad dildə" əsərində də bu özünü göstərir. Belə ki, məlum mündəricə bədiilik və publisistlik arasındakı sərhədləri dağıdır, publisistik mülahizə və şərhlərin bədiiliyin metaforik sisteminə müdaxiləsini qaçılmaz edir. Buna görə də, mühitdən gələnin üstünlük təşkil etdiyi mətnlərdə müəlliflər, eləcə də personajlar daha çox sosial psixoloq kimi özlərini aparırlar.

Bu fəsildə əldə edilən nəticələr Respublikada və Respublikadan kənar nüfuzlu elmi jurnallarda aşağıda qeyd olunan məqalə və məruzələr halında çap edilmişdir[12].

Üçüncü fəsil **"Psixologizmin poetik-funksional imkanları və ifadə vasitələri"** adlanır və iki paraqrafdan ibarətdir. ***"Dilin psixopoetik funksiyası və üslub müxtəlifliyi"*** adlanan ilk paraqrafda

[12] Ələkbərli, S.Ə. 2000-ci illər Azərbaycan nəsrində qəhrəmanın psixoloji kimliyinin açılması // Gənc tədqiqatçıların III respublika elmi-praktik konfransının materialları. – Bakı: Azərbaycan Universiteti. – 13 mart, – 2020, – s.69-71; Müstəqillik dövrü Azərbaycan nəsrində müasir qəhrəman və onun psixoloji portreti // International Asian Congress on contemporary sciences-IV. – Baku: Azerbaijan Khazar University, – 26-28 June, – 2020, – s.270-271; Şərif Ağayar nəsrində psixologizm // – Bakı: Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2019. №6, – s.67-70; Kamal Abdulla nəsrində psixologizm // – Bakı: Bakı Dövlət Universiteti. Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2019, №3(111), – s.329-331; Myth and folklore as psychological resources of prose fiction // Proceedings of the 2nd International Scientific Conference «Foundations and Trends in Research» Copenhagen, Denmark: – March 30-31, – 2023, № 2, – p.134-136; Psychological heroes created by time (a study of Azerbaijani prose in 2000s) // – Drohobych, Humanities science current issues. Interuniversity collection of Drohobych Ivan Franko State Pedagogical University young scientists research papers, – 2020. Issue 30, – p.24-27; The psychological content of the internal world in the stories of Saday Budaghli // VII. International Ankara Multidisciplinary Studies Congress. – Ankara, Turkey, – March 5-6, – 2024, – p. 266; Psixoloji nəsr kontekstində Saday Budaqlı hekayələri // Gənc tədqiqatçıların VII Respublika elmi-praktik konfransının materialları. – Bakı: Azərbaycan Universiteti, – 15 mart, – 2024, – s.101-103.

psixopoetika anlayışına münasibət bildirilir. Psixopoetika gənc termindir və ona münasibət birmənalı deyil. Bəzilərinə görə, sırf şeirlə bağlı olub poetik düşüncənin dildə ifadə olunma prosesinin psixolinqvistik dərkinin ixtisaslaşmış sahəsidir (Leontyev), bəzilərinə görə isə bütün ədəbi növlərdə insanın daxili məninin bədii sözə-nitqə çevrilməsi prosesini öyrənən filoloji yanaşmadır (Etkind). Onu bədii nitqin/bədii mətnin psixolinqvistikası kimi izah edənlər də var.

Dilin psixopoetik aspekti dedikdə bədii mətnin linqvistik ifadə vasitələrinin obrazlı planının semantik dərki, bədii mətnin sözlərinin şifahi obrazlar kimi qəbul edilməsi, başqa sözlə, sözlərin arxasında dayanan, açıq şəkildə ifadə olunmayan fikirlərin, hisslərin, ifadələrin və s. dərk olunması nəzərdə tutulur[13].

Bu baxımdan Elçinin "Canavarlar" hekayəsi psixopoetik təhlilə olduqca əlverişlidir. Belə ki, canavarların sərgüzəşti bu hekayədə insan və onun taleyini şərti-metaforik şəkildə ifadə edir, üslub müəyyən qədər ekspressionistləşir. Kamal Abdullanın "Unutmağa kimsə yox" romanının kompozisiyasında mürəkkəblik, fraqmentarlıq, zaman müxtəlifliyi, hadisələrin anaxronik düzümü müşahidə olunur. Bu dağınıqlıq məhz psixopoetik prinsip əsasında toparlanır, səliqəyə salınır. Simvollarla və metaforik obrazlarla ifadə olunan motivlər mətnəqədərki təcrübələrlə birlikdə bu prosesi gerçəkləşdirirlər, oxucunu eyhamla keçmişin mətnlərinə yönəldirlər. Ayrı-ayrı motivlər birləşir, motiv karkası hörülür. Bu karkas altında müəllifin təəssüratları, assosiasiyaları, poetik obrazları birləşir. Lirizm bu romanda psixopoetik funksiya daşıyır. Həm Kamal Abdullanın şair kimliyinin üslublaşmasının göstəricisi kimi yadda qalır, həm də roman iştirakçılarının sevgi əhvalatlarını emosional şəkildə ifadə edir. Biri (müəllif dünyagörüşü) mətndəki lirizmin qaynağı olub, yaradıcı enerjinin tipini müəyyən edir, digəri (romana səpələnmiş sevgi əhvalatları) isə bu enerjini sözə çevirmək üçün vasitə rolunu oynayır.

---

[13] Кулибина, Н.В. Лингводидактика. Эстетическая деятельность читателя художественной литературы и её методическая интерпретация // – Москва: МАКС Пресс: Язык, сознание, коммуникация: Сб. Статей, – 2001. Вып. 16. – 116 с.

Üçüncü fəslin ikinci və sonuncu paraqrafı ***“Psixoloji məzmun və təhkiyə üsulları”*** adlanır. Təhkiyə prozaik düşüncənin özünüifadə mexanizmidir. İstənilən nəsr nümunəsinə bədii mətn kimi yanaşdıqda, onu təşkil edən estetik komponentləri və qatları görmək şərtdir. Təhkiyənin tipoloji müxtəlifliyində psixoloji meyarların rolu böyükdür, hətta təyinedici vəzifəsi var. Səthi-kompozisiya xassəli müəllif sözü ilə dolğun və qarışıqsız saf qəhrəman sözü bir-biri ilə psixoloji cəhətdən ünsiyyətə girə bilir. Müəllif müstəntiq kimi davrana, öz personajlarını ittiham edə, cəzalandıra və mükafatlandıra da bilər. Əksinə, bir psixiatr kimi yanaşıb personajların psixi “nasazlığını” göstərə də bilər. Bunun üçün o müxtəlif situasiyalar qurur. Birinci halda personajları öz süzgəcindən keçirərək təqdim edir, onun psixobioqrafik portretini yaradır. İkinci halda personajları olduğu kimi təqdim edir, zahiri əlamət və nişanları, danışıq və davranış tərzi ilə birlikdə, “çılpaq” şəkildə göstərir, onu psixoloji cəhətdən tanımağımıza şərait yaradır.

Mübariz Cəfərlinin “Əl” povestində də yazıçı qəhrəmanın daxili dünyasını aşkarlamaq üçün daxili monoloqdan istifadə edir. Povest tanımadığımız bir kişinin öz yuxuları ilə bağlı təhkiyəsi ilə başlayır. Bu təhkiyəçinin qəribə yuxuları və yuxuda ona deyilənlər özünü təəccübləndirir. Bu povestdə yuxulara nə qədər mistik və dini əlamətlər yüklənsə də, yuxuların gələcək barədə proqnozlaşdırıcı funksiyası önə çəkilsə də, əslində Freyd nəzəriyyəsi yenə özünü doğruldur. Mətn boyunca qocalıqla bağlı hər iki dostun söhbətləri, özlərində hiss etdikləri qocalıq və yaşlılıq əlamətləri ilə bağlı düşüncələri əsas verir ki, onların qocalığın gətirdiyi ölüm qorxusunu yaşadığını düşünək. Bədən cəhətdən və ruhən qocalmış bu iki dostun düşdükləri bu psixoloji situasiya mətndə məhz daxili nitq və şərhlər vasitəsilə öz ifadəsini tapıb.

Adında psixoloji metaforiklik qabarıq olan əsərlərdən biri də İlqar Fəhminin teatral roman adlandırdığı “Akvarium” əsəridir. Akvarium metafora kimi ilk növbədə məhdudiyyətlə əlaqə qurur. Əsər finaldan başlayır, oxucunun bilmədiyi əvvələ doğru gedir. Yazıçı “Akvarium” adlı teatrın sahibi Sahibi “müəllif sözü” ilə təqdim etsə də, ənənəvi vasitəçi-təhkiyəçi rolunu mənimsəsə də, bəzi

epizodlarda dialoqlara, bəzi məqamlarda isə teatral monoloqlara üstünlük verməklə psixologizmin açılmasına şərait yaradır.

Nəriman Əbdülrəhmanlının roman-assosiasiya kimi təqdim etdiyi "Yalqız" romanı olduqca maraqlı dil-üslub xüsusiyyətlərinə, forma və struktura malikdir. Roman "şüur seli" texnikasından istifadə etməklə bitib-tükənməz enerji ilə yazılıb. "Yalqız" romanı insan tənhalığının ekzistensial şərhidir, amma üslubca ekspressionistdir. Daxili monoloqlar, bəzən şüur selinə çevrilən nəqletmə vasitəsilə personajın xarakteristikası açılır. Yalqız introvert xarakterdir, antisosialdır, təkliyə meyillidir, öz-özü ilə danışmağa üstünlük verir.

Nəriman Əbdülrəhmanlının "Yolsuz" romanında da təxminən oxşar təhkiyə məntiqi öz əksini tapıb.

Ümumiyyətlə, personajların psixoloji durumunun qabarıq ifadə olunduğu romanlarda şüur axınının və daxili monoloqların tez-tez istifadə olunması xarakterikdir. Eyvaz Əlləzoğlunun "Odunçu geri qayıdır" və Aydın Talıbzadənin "Kəpənək modeli 102" romanlarında şüur axını texnikasına dair maraqlı məqamlar var.

Bütün bunlar belə nəticəyə gəlməyə imkan verir ki, mətni obyektiv, müəllifdən azad, müstəqil, özü-özünü izah edən bir nəsnə kimi görən narratologiyanın belə psixoloji məqamlardan qaçması mümkün deyil. Psixologiya və ədəbiyyat ayrılmaz ikilidir. Bədii mətn psixoloji nüansları həm məzmununda, həm də formasında mühafizə edir, qoruyub saxlayır.

Bu fəsildə alınan elmi nəticələr Respublikada və Respublikadan kənar nüfuzlu jurnallarda çap edilmişdir[14].

---

[14] Alakbarli, S.A. Technique of flow of consciousness in Azerbaijani prose of two thousand years and difference between it and internal monology // Institute of Philosophy of the National Academy of Sciences of Ukraine, M.P.Dragomanov National Pedagogical University Proceedings of the second international scientific conference social sciences and humanities research and innovative educational activities. – Dnipro, Ukraine, – June 26-27, – 2020, – p.161-163; Ələkbərli, S.Ə. Müstəqillik dövrü Azərbaycan nəsrində qəhrəmanların dialoqlarında psixoloji kimlik // – Bakı: Azərbaycan Universiteti, İpək yolu, – 2020. № 2, – s.152-159; Müstəqillik dövrü Azərbaycan nəsrində qəhrəmanların daxili monoloqunda psixoloji kimlik // – Bakı: Pedaqoji Universitetin xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2020. c.68, № 2, – s.39-47; Müasir Azərbaycan nəsrində dilin psixopoetik funksiyası və üslub müxtəlifliyi // Uluslararası Türkçe Edebiyat Kültür Eğitim (TEKE) Dergisi. – 2023. Cilt 12, №4, – s.1602-1610.

Tədqiqatın yekunları **nəticə** hissəsində ümumiləşdirilmişdir:

1. XX əsr və onun müəyyən qədər məntiqi davamı olan XXI əsrin antipsixologizm əsri hesab olunması nəzərə alınaraq, belə bir mühitdə Azərbaycan ədəbiyyatında psixologizmin tədqiqini şübhə altına salan meyarlara aydınlıq gətirilmişdir. Belə nəticəyə gəlinmişdir ki, müasir dövrdə psixologizmin köklü dəyişikliklərinin əsl səbəbi insan anlayışının dəyişməsi ilə birbaşa bağlıdır. Bu dəyişən insanı öyrənmək üçün sosial, koqnitiv, ekzistensial, arxetipik, şəxsiyyət və şəxsiyyətlərarası münasibətlər psixologiyası və s. sahələr bir-birini əvəz etməkdədir. Bu gün ədəbiyyatdakı insanın psixologiyasının bu istiqamətlərini nəzərə almadan izah etmək çətindir, eyni zamanda qeyri-mümkündür. Mədəniyyətin bütün sahələrində – fəlsəfədə, psixologiyada, incəsənət və ədəbiyyatda baş vermiş bu psixoloji mürəkkəbliyi izah etməyin ən doğru yolu isə multidisiplinar yanaşmadır.

2. Bu gün müasir nəsrin tədqiqində psixologizmin predmet kimi mümkünlüyü sinkretik yanaşma tələb edir. Çünki müasir nəsrin çoxmetodlu, çoxüslublu – plüralist fonunda sovet qəlibli psixologizm özünü doğrultmur. Psixologizmin müasir filoloji lüğətdə qalmasını və davamlılığını təmin edən məqam odur ki, o, ədəbiyyat və psixologiya arasındakı münasibətlərin mahiyyətini ifadə edə bilsin. Psixologizm ədəbiyyatda psixoloji olan bütün situasiyaları adlandıra bilsin, psixolinqvistik, psixoestetik, psixopoetik məqamları şərh etsin. Psixologizm ədəbiyyatın psixologiyasının əhatə dairəsinə tam işıq tutmağı bacardığı təqdirdə öz elmi aktuallığını qoruya bilir. Psixologizmin interdisiplinar məzmunundakı əsas nüans – psixoloji məqamlara üstünlük verməsi terminin müasir dövrdə istifadəsinə şərait yaradır. Müasir yanaşmalar kontekstində psixologizm fenomeni özündə Şərq və Qərb təcrübələrini birləşdirir. Ədəbiyyatda psixologizmi bütün məqamlarda axtarmağa – semantik-semiotik-struktur qatlarda təzahür formalarını tapmağa imkan verən bir anlayışdır. Ədəbiyyatın immanent xüsusiyyəti kimi özünü təqdim etdiyi təqdirdə qəbul edilə bilir, metodoloji doğruluq göstərir. Bu immanentliyi aşkarlamaq, bədii nəsrin forma və məzmun bütövlüyündə estetik kateqoriya kimi araşdırmaq daha doğru yoldur.

3. Ümumiyyətlə, müstəqillik dövrü Azərbaycan nəsrini bütöv estetik, poetik və linqvistik hadisə kimi qəbul edəndə o özü canlı bir orqanizmə çevrilir. Bu orqanizm bizə şüur, şüuröncəsi, şüuraltı qatlarda baş verən psixi fəaliyyətin estetik nəticəsini təqdim edir. Azərbaycan nəsrini insan kimi metaforlaşdırsaq onun altşüuru mif və folklorla birbaşa bağlıdır. Bu ilk psixoloji qaynaqdır. Əlaqəni quran isə arxetiplərdir. Daha doğrusu, arxetip situasiyaların universallığı və daimiliyidir. Nəsrin məzmun və forma qatında, onun bütün narrativinə yayılan hər şeyin arxasında arxetipik strukturu təyin etmək mümkündür. Çünki ədəbiyyatın dəyişilməz mövzusu olan insan kök əlaqələrlə keçmişə bağlıdır.

4. 2000-2010-cu illər Azərbaycan nəsri müstəqillik dövrü ədəbiyyatının başlanğıcı və bu günü arasında keçid funksiyası oynayır. Burada mental, etnik və fərdi psixoloji məqamların rolu danılmazdır. 2000-2010-cu illər Azərbaycan nəsrinin personajlar qalereyasında çox fərqli tiplərə rast gəlmək mümkündür. Şəxsiyyətin psixoloji strukturu ilə bağlı psixoanalitik modelləri əsas götürməklə təhlil edilən obrazları birləşdirən əsas cəhət universal dəyərlərdir. Şüur və şüuraltı prosesləri müxtəlif bədii priyomlarla ortaya çıxan, bir-biri ilə isti, soyuq, dost, düşmən münasibətləri olan personajlar böyük dünyanın kiçik, kiçik dünyanın böyük insanları kimi öz ədəbi məkanlarında var-gəl edirlər. Bu əsərlərin qəhrəmanlarının bütün zamanlara və bütün dünya insanına xas xarakterləri Azərbaycanlı kimliyində ortaya qoyulur.

5. Təkcə fərdlərin deyil, qrupların, xalqların və mədəniyyətlərin də şüuraltı düşüncələri var. Bu, problemlərin şərhinə sosial psixologiya aspektindən baxmaq deməkdir. Sosial psixologiya psixoanaliz kimi fərdləri deyil, cəmiyyəti təşkil edən bütün fərdləri əsas götürür. Bu da irəli sürdüyümüz müddəanın, yəni Qərb psixoanalizi ilə rus-sovet psixologizminin mahiyyətcə bir-birinə bağlılığının bir daha sübutudur. İnsan psixoloji və sosial varlıq olaraq bir bütövdür. Ədəbiyyat da bu bütövlüyü olduğu kimi qəbul edir. Bu nöqtədən yanaşdıqda, 2000-ci illər Azərbaycan nəsri də birbaşa öz dövrü, mühiti ilə əlaqədədir. Nə vaxt ki, gerçək həyatın insanları bədii nəsrdə öz odisseyalarını yazırlar, bu vaxt həyatın içindən mətnə yansıyan insan hekayələri psixoloji dərinlik qazanır. Bu mənada 2000-ci illər nəsri ictimai həyatımızın bir

çox sahələrini əhatə etmək, cəmiyyətin sosial problemlərinə toxunmaq, geniş diapazonlu xarakterlər yaratmaq və dünya nəsrində baş verən müasirliklə ayaqlaşmaq baxımından olduqca zəngin və maraqlı tədqiqat materialıdır.

6. Azərbaycan nəsri psixoestetika və psixostilistika istiqamətlərindən təhlilə cavab verəcək potensiala sahibdir. Bu gün humanitar düşüncədə antipsixologizm psixologizmi müəyyən mənada sıxışdırsa da, tam şəkildə dəf edə bilmir. İnsanın bütün zamanlarda yaradıcı enerjinin qaynağı olması danılmaz həqiqətdir. Sadəcə olaraq, bu gün subyektivlik mətnin alt qatlarına doğru hərəkətdədir, onun aşkarlanmasında dilin psixoestetik və psixostilistik funksiyalarından bəhrələnmək lazımdır və bunu doğru istiqamət hesab etmək olar.

7. Nəsr təhkiyəsinin çeşidlənməsində insanın tip, xarakter və temperament fərqləri rol oynayır. Daxili monoloq, şüur axını, daxili nitq və s. kimi təhkiyələrdə personajların özləri də qapalı olurlar. Bütün bunlar belə nəticəyə gəlməyə imkan verir ki, mətni obyektiv, müəllifdən azad, müstəqil, özü-özünü izah edən bir nəsnə kimi görən narratologiyanın belə psixoloji məqamlardan qaçması mümkün deyil. Psixologiya və ədəbiyyat ayrılmaz ikilidir. Bədii mətn psixologizmi həm məzmununda, həm də formasında mühafizə edir, qoruyub saxlayır.

8. Psixologizmin antipsixologizmə doğru zəiflədiyi müasir estetikada insanın psixi həyatı ritorik fiqurlarda birbaşa təcəssüm oluna bilmir. Antipsixologizm psixologizmi aradan tam qaldıra bilməsə də, ciddi dərəcədə sıxışdırır. Bu zaman sonuncu özünü ifadə üçün çox fərqli forma tapır. Analitik şərhə, səbəb-nəticə əlaqəsinə, ətraflı izahata əsaslanan ənənəvi psixologizmdən fərqli olaraq antipsixologizm latent, qeyri-müəyyən formalarda təzahür edir və sinkretik xarakter daşıyır. Bütövlükdə humanitar düşüncədə və onun bir alt kateqoriyası olan filologiyada psixologizmdən qaçmaq qeyri-mümkündür. Ədəbiyyat ən antipsixoloji mövqeyində belə psixologizmi tam şəkildə inkar edə bilmir.

9. Son olaraq, 2000-2010-cu illər Azərbaycan nəsrində psixologizmin əhatəli tədqiqi göstərdi ki, Azərbaycan ədəbiyyatı psixoloji istiqamətdə ciddi dəyişikliklərə çevik reaksiya verməyi

bacarmış, Azərbaycan insanının əbədi və dəyişkən kimliyini, bəşəri və lokal xüsusiyyətlərini özünəxas şəkildə ifadə edə bilmişdir.

***Tədqiqatın əsas məzmunu və elmi müddəaları aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:***


1. Kamal Abdulla nəsrində psixologizm // – Bakı: Bakı Dövlət Universiteti. Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2019. № 3 (111), – s.329-331.
2. Şərif Ağayar nəsrində psixologizm // – Bakı: Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2019. № 6, – s.67-70.
3. 2000-ci illər Azərbaycan nəsrində qəhrəmanın psixoloji kimliyinin açılması // Gənc Tədqiqatçıların III Respublika Elmi-praktik Konfransının materialları. – Bakı: Azərbaycan Universiteti, – 13 mart, – 2020, – s.69-71.
4. Müstəqillik dövrü Azərbaycan nəsrində qəhrəmanların daxili monoloqunda psixoloji kimlik // – Bakı: Pedaqoji Universitetin xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2020. C.68, № 2, – s.39-47.
5. Müstəqillik dövrü Azərbaycan nəsrində qəhrəmanların dialoqlarında psixoloji kimlik // – Bakı: Azərbaycan Universiteti, İpək yolu, – 2020. № 2, – s.152-159.
6. Technique of flow of consciousness in Azerbaijani prose of two thousand years and difference between it and internal monology // Institute of Philosophy of the National Academy of Sciences of Ukraine M.P.Dragomanov National Pedagogical University Proceedings of the second international scientific conference social sciences and humanities research and innovative educational activities. – Dnipro, Ukraine, – June 26-27, – 2020, – p.161-163.
7. Müstəqillik dövrü Azərbaycan nəsrində müasir qəhrəman və onun psixoloji portreti // International Asian Congress on contemporary sciences-IV, – Baku: Azerbaijan Khazar University, – 26-28 June, – 2020, – s.270-271.
8. Psychological heroes created by time (a study of Azerbaijani prose in 2000s) // – Ukraine: Humanities science current issues.

Interuniversity collection of Drohobych Ivan Franko State Pedagogical University Young Scientists Research Papers, – 2020. Issue 30, – p.24-27.

9. Ədəbiyyatın psixoanalizi: metodoloji əsasları və nəzəri meyarları // – Bakı: AMEA, Filologiya və Sənətşünaslıq, – 2023. № 1, – s.135-143.
10. Myth and folklore as psychological resources of prose fiction. // Publisher agency: Proceedings of the 2nd International Scientific Conference “Foundations and Trends in Research”. – Copenhagen, Denmark: – March 30-31, – 2023, № 2, – p.134-136.
11. Rus-sovet ədəbiyyatşünaslığında psixologizm məsələsi: metodoloji istiqamətlər və mərhələlər // – Bakı: Azərbaycan Dillər Universiteti, Elmi xəbərlər, – 2023. №2, – s.124-131.
12. Müasir Azərbaycan nəsrində dilin psixopoetik funksiyası və üslub müxtəlifliyi // Uluslararası Türkçe Edebiyat Kültür Eğitim (TEKE) Dergisi. – 2023. Cilt 12, №4, – s.1602-1610.
13. The psychological content of the internal world in the stories of Saday Budaghli // VII. International Ankara Multidisciplinary Studies Congress. – Ankara, Turkey, – March 5-6, – 2024, – p. 266.
14. Psixoloji nəsr kontekstində Saday Budaqlı hekayələri // Gənc tədqiqatçıların VII Respublika elmi-praktik konfransının materialları. – Bakı: Azərbaycan Universiteti, – 15 mart, – 2024, – s.101-103.



Dissertasiyanın müdafiəsi 18 mart 2025-ci il tarixində saat 12⁰⁰-da Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31

Dissertasiya ilə AMEA Folklor İnstitutunun Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "11" fevral 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 06.02.2025

Kağızın formatı: 60x84 1/16

Həcm: 45702 işarə

Tiraj: 100 nüsxə